# Zəkəriyyə 1

**Rəbbin Öz xalqına müraciəti**

[1]Daranın hakimiyyətinin ikinci ilində, səkkizinci ayda İddo oğlu Berekya oğlu Zəkəriyyə
peyğəmbərə Rəbbin bu sözü nazil oldu: [2]«Rəbb atalarınıza çox qəzəbləndi. [3]Ona görə də
sən onlara söylə ki, Ordular Rəbbinin sözü belədir: “Mənə tərəf qayıdın” bəyan edir
Ordular Rəbbi,

“Mən də sizə tərəf qayıdaram” deyir Ordular Rəbbi.

[4]“Atalarınız kimi olmayın! Əvvəlki peyğəmbərlər onlara müraciət edib söylədi ki,
Ordular Rəbbi onlara ‹pis əməllərinizdən və pis işlərinizdən qayıdın› deyir. Ancaq onlar
eşitmədi və Mənə qulaq asmadı” Rəbb belə bəyan edir. [5]“Atalarınız indi haradadır?

Peyğəmbərlər də əbədi yaşayırmı?

[6]Amma qullarım peyğəmbərlərə əmr etdiyim

Sözlərim və qaydalarım atalarınıza gəlib çatmadımı?”

Onlar da tövbə edib dedi: “Ordular Rəbbi əməllərimizə və işlərimizə görə bizə nə etməyi düşündüsə, bizimlə elə də rəftar etdi”».

**Birinci görüntü: atlılar**

[7]Daranın hakimiyyətinin ikinci ilində, on birinci ay olan Şevat ayının iyirmi dördüncü
günü İddo oğlu Berekya oğlu Zəkəriyyə peyğəmbərə Rəbbin bu sözü nazil oldu: [8] gecə
yarısı gördüm ki, qırmızı ata minmiş bir nəfər dərənin dibində mərsin ağacları arasında
durub. Onun arxasında isə qırmızı, kəhər və ağ atlar var idi. [9]Mən soruşdum: «Ay ağam,
bunlar nədir?» Mənimlə danışan mələk dedi: «Bunların nə olduğunu sənə göstərəcəyəm».
[10]Mərsin ağacları arasında duran adam cavab verdi: «Bunları dünyanı dolaşmaq üçün
Rəbb göndərib». [11]Onlar mərsin ağacları arasında duran Rəbbin mələyinə cavab verdi:
«Biz dünyanı dolaşdıq və gördük ki, bütün dünya asayiş və əmin-amanlıq içindədir».
[12]Onda Rəbbin mələyi dedi: «Ey Ordular Rəbbi, bu yetmiş il ərzində qəzəbləndiyin
Yerusəlimə və başqa Yəhuda şəhərlərinə nə vaxta qədər mərhəmət etməyəcəksən?»
[13]Rəbb mənimlə danışan mələyə yaxşı vədlərlə, təsəlliverici sözlərlə cavab verdi.
[14]Mənimlə danışan mələk mənə dedi: «Müraciət edib söylə ki, Ordular Rəbbi belə deyir:
“Yerusəlim və Sion üçün böyük qısqanclıq duyuram.

[15]Qayğısız olan millətlərə qarşı çox qəzəbliyəm.

Çünki Mən hələ az qəzəbləndiyim zaman

Onlar öz pis əməllərini daha da artırdı”.

[16]Buna görə də Rəbb belə deyir:

“Mən mərhəmətlə Yerusəlimə qayıtdım.

Evim yenə orada qurulacaq,

Yerusəlimin üzərinə ölçü ipi çəkiləcək”

Bəyan edir Ordular Rəbbi.

[17]Sən bir daha müraciət edib söylə ki,

Ordular Rəbbi belə deyir:

“Şəhərlərim yenə bolluqla dolub-daşacaq.

Rəbb Siona yenə təsəlli verəcək,

Yenə Yerusəlimi seçəcək”».

**İkinci görüntü: dörd buynuz və dörd usta**

[18]Sonra başımı qaldırıb baxdım və dörd buynuz gördüm. [19]Mənimlə danışan mələyə
dedim: «Bunlar nədir?» O mənə dedi: «Bunlar Yəhudanı, İsraili və Yerusəlimi dağıtmış
buynuzlardır». [20]Onda Rəbb mənə dörd usta göstərdi. [21]Mən «Bunlar nə etməyə gəlir?»
deyə soruşdum. O dedi: «Bu buynuzlar Yəhudanı elə dağıtdı ki, heç kəs başını qaldıra
bilmədi. Bu ustalar da Yəhuda ölkəsini dağıtmaq üçün buynuz qaldıran millətləri dəhşətə
gətirib buynuzlarını yerə çalmağa gəldi».

# Zəkəriyyə 2

**Üçüncü görüntü: ölçü ipi**

[1]Mən başımı qaldırıb baxdım və əlində ölçü ipi olan bir adam gördüm. [2]«Hara
gedirsən?» deyib soruşdum. O mənə dedi: «Yerusəlimi ölçməyə, en və uzunluğunun nə
qədər olduğunu öyrənməyə gedirəm». [3]Mənimlə danışan mələk yanımdan çıxanda başqa
bir mələk onu qarşılamağa gəldi [4]və ona dedi: «Qaç, o cavana söylə ki, içində adamlar

Və heyvanlar çox olduğu üçün

Yerusəlim divarsız bir şəhər olacaq.

[5]“Mən Özüm onun ətrafında odlu divara çevriləcəyəm,

Onun içində izzət olacağam” bəyan edir Rəbb».

6«Haydı, haydı! Şimal ölkəsindən qaçın» deyir Rəbb,

«Çünki sizi göydə dörd tərəfə əsən

Külək kimi dağıtmışdım» deyir Rəbb.

7«Haydı! Ey Sion, sən ki Babil şəhərində yaşayırsan, qaçıb qurtar!»

8Çünki Ordular Rəbbi deyir ki,

İzzəti üçün sizi qarət etmiş millətlərin yanına Məni göndərdi.

Sizə toxunan Onun göz bəbəyinə toxunmuş olur.

9Mən o millətlərə qarşı əlimi qaldıracağam,

Əsarətlərində olanlar onları qarət edəcək.

Onda biləcəksiniz ki,

Məni Ordular Rəbbi göndərmişdir.

10«Şadlıq edib sevin, ey Sion qızı! Çünki aranızda yaşamağa gəlirəm» bəyan edir Rəbb.

11«O gün çoxlu millətlər Rəbbə bağlanacaq,

Mənim xalqım olacaq.

O zaman aranızda yaşayacağam.

Siz biləcəksiniz ki,

Məni yanınıza Ordular Rəbbi göndərib.

12Rəbb müqəddəs torpaqda

Yəhudanı Öz payı olaraq mülk alacaq,

Yenə Yerusəlimi seçəcək.

13Ey bütün bəşər, Rəbbin önündə susun!

Çünki O Öz müqəddəs məskənindən qalxıb gəlir!»

# Zəkəriyyə 3

**Dördüncü görüntü: baş kahin Yeşua**

[1]Rəbb mənə bunu göstərdi: Rəbbin mələyinin önündə baş kahin Yeşua durmuşdu və onu
ittiham etmək üçün sağında Şeytan dayanmışdı. [2] Rəbb Şeytana dedi: «Rəbb səni
məzəmmət etsin, ey Şeytan, Yerusəlimi seçən Rəbb səni məzəmmət etsin. Bu adam
oddan çıxarılmış, yarısı yanmış odun parçasına bənzəmirmi?» [3]O vaxt Yeşua əyninə çox
çirkli paltar geyinib mələyin önündə dayanmışdı. [4]Bu mələk önündə duran mələklərə
dedi: «Onun əynindən çirkli paltarı çıxarın». Sonra Yeşuaya dedi: «Bax günahını sənin
üzərindən götürdüm, indi sənə bayram paltarı geyindirəcəyəm». [5]Mən isə dedim: «Qoy
başına da təmiz çalma bağlasınlar». Başına təmiz çalma bağlayıb ona paltar geyindirdilər.
Rəbbin mələyi də yanında durmuşdu. [6]Sonra Rəbbin mələyi Yeşuaya şəhadət edib dedi:
[7]«Ordular Rəbbi belə deyir: "Əgər yollarımla getsən, verdiyim buyruğumu qoruyub
saxlasan,

Evimə sən başçılıq edəcəksən, həyətlərimi sən qoruyacaqsan.

Burada duranların arasında içəri keçmək haqqını sənə verirəm".

[8]Ey baş kahin Yeşua, sən və sənin önündə oturan yoldaşların qulaq assın! Çünki onlar
gələcək hadisələrin əlamətidir.

Mən "Pöhrə" adlı qulumu gətirəcəyəm.

[9]Yeşuanın önünə qoyduğum daşa baxın!

O tək daşın yeddi gözü var.

Onun üzərinə bir yazı oyub yazacağam» bəyan edir Ordular Rəbbi,

«Bir gün içində bu ölkənin günahını ortadan götürəcəyəm.

[10]O gün hər biriniz qonşusunu öz tənəyi və əncir ağacı altına çağıracaq» Bəyan edir
Ordular Rəbbi.

# Zəkəriyyə 4

**Beşinci görüntü: çıraqdan və zeytun ağacları**

[1]Mənimlə danışan mələk geri qayıdıb məni yuxusundan oyanan adam kimi oyatdı. [2] O
məndən soruşdu: «Nə görürsən?» Mən dedim: «Büsbütün qızıldan olan bir çıraqdan
görürəm. Onun başında zeytun yağı üçün bir qab, üzərində yeddi çıraq, çıraqlarda isə
yeddi lülə var. [3] Çıraqdanın yanında isə biri yağ qabının sağında, o biri solunda olmaqla
iki zeytun ağacı var». [4]Sonra mənimlə danışan mələkdən soruşdum: «Ay ağam, bunlar

nədir?» [5]Mənimlə danışan mələk «Bunların nə olduğunu bilmirsənmi?» deyə soruşdu.
Mən də «yox, ağam» dedim. [6] O mənə cavab verdi: «Zerubbabilə Rəbbin sözü budur:

“Güclə, qüdrətlə yox, yalnız Mənim Ruhumla iş görəcəksən”

Deyir Ordular Rəbbi.

[7]Sən kimsən, ey uca dağ?

Zerubbabilin önündə düzənliyə çevriləcəksən.

O “nə gözəldir, nə gözəldir” nidaları altında

Məbədin təpə daşını götürəcək».

[8]Mənə Rəbbin sözü nazil oldu: [9]«Bu evin təməlini Zerubbabilin əlləri qoydu,

Onun əlləri də bunu sona çatdıracaq.

Onda biləcəksən ki, Ordular Rəbbi Məni sizin yanınıza göndərib.

[10]Bu günü kim əhəmiyyətsiz hesab edə bilər? Məhz bu gün adamlar Zerubbabilin əlində
şaqulu görəndə sevinəcək.

Bu yeddi çıraq isə Rəbbin bütün yer üzündə dolaşan gözləridir».

[11] Mən ondan soruşdum: «Bəs çıraqdanın sağ və solunda olan bu iki zeytun ağacı
nədir?» [12]Sonra yenə soruşdum: «İki qızıl borucuq vasitəsilə içindən qızıl rəngində yağ
axan bu iki zeytun budağı nədir?» [13]O məndən soruşdu: «Bunların nə olduğunu
bilmirsənmi?» Mən də «yox, ay ağam» dedim. [14]O mənə dedi: «Bunlar bütün yer üzünün
Sahibinin önündə duran məsh olunmuş iki nəfərdir».

# Zəkəriyyə 5

### Altıncı görüntü: uçan tumar

[1]Mən yenə başımı qaldırıb baxanda uçan bir tumar gördüm. [2]Mələk «Nə görürsən?»
deyib məndən soruşdu. Mən dedim: «Uçan bir tumar görürəm: onun uzunluğu iyirmi
qulac, eni on qulacdır». [3]O dedi: «Bu bütün yer üzünə yağacaq lənətdir. Tumarın bir
üzünə yazılanlara görə oğurluq edən hər kəs kəsilib-atılacaq, o biri üzünə yazılanlara görə
isə yalandan and içənlər kəsilib-atılacaq. [4]Lənət yağdıracağam» bəyan edir Ordular
Rəbbi,

«Oğrunun evinə və Mənim adımla

Yalandan and içən adamın evinə lənət girəcək,

O evin içində qalacaq,

Taxtaları və daşları ilə birlikdə onu yıxıb məhv edəcək».

**Yeddinci görüntü: ölçü qabındakı qadın**

[5]Sonra mənimlə danışan mələk yaxınlaşıb dedi: «Başını qaldırıb ortaya çıxan bu şeyin nə
olduğunu gör». [6]Mən «Bu nədir?» deyə soruşdum. O cavab verdi: «Bu ortaya çıxan şey
bir ölçü qabıdır». Sonra əlavə etdi: «Bu bütün ölkə xalqının təqsiridir». [7]Qabın qurğuşun
qapağı qaldırıldı. Qabın içində bir qadın oturmuşdu. [8]Mələk «bu qadın pislikdir» dedi və
qadını ölçü qabının içinə atıb üstünə qurğuşun qapağı basdı. [9]Mən başımı qaldırıb
baxanda gördüm ki, iki qadın çıxdı, onların qanadlarında külək var idi. Onların da leylək
qanadlarına bənzər qanadları var idi. Onlar qabı yerlə göy arasına qaldırdı. [10]Mənimlə
danışan mələkdən soruşdum: «Qabı hara aparırlar?» [11]O mənə dedi: «Şinar ölkəsində
ona bir ev tikmək üçün oraya aparırlar. Ev hazır olanda qab oraya – öz yerinə
qoyulacaq».

# Zəkəriyyə 6

**Səkkizinci görüntü: dörd döyüş arabası**

[1]Yenə başımı qaldırıb baxanda iki dağ arasından dörd döyüş arabasının çıxdığını gördüm.
O dağlar misdən idi. [2] Birinci döyüş arabasının qırmızı, ikincisinin qara, [3]üçüncüsünün
ağ, dördüncüsünün xallı atları var idi. Hamısı qüvvətli atlar idi. [4]Mənimlə danışan
mələkdən «Ay ağam, bunlar nədir?» deyib soruşdum. [5] Mələk mənə cavab verdi:
«Bunlar bütün yer üzünün Sahibinə xidmət etdikləri yerdən çıxan göylərin dörd səmtinin
ruhudur. [6]Qara atları olan döyüş arabası şimal torpağına, ağ atları olan döyüş arabası
qərbə, xallı atları olan döyüş arabası isə cənuba tərəf gedir». [7]Qüvvətli atlar çıxıb yer
üzünü dolaşmaq üçün getmək istədi. Mələk «gedin yer üzünü dolaşın» dedi. Onlar da
gedib yer üzünü dolaşdı. [8]Mələk məni çağırıb dedi: «Bax şimal torpağına gedənlər orada
ürəyimi rahatlandırdı».

**Yeşuaya tac qoyulması**

[9]Mənə Rəbbin bu sözü nazil oldu: [10]«Hədiyyələri sürgündən qayıdanlardan – Babildən
gələn Xelday, Toviya, Yedayadan götür və həmin gün Sefanya oğlu Yoşiyanın evinə get.
[11]Onların arasından qızıl-gümüş götürüb taclar düzəlt və baş kahin Yehosadaq oğlu
Yeşuanın başına qoy. [12] Ona söylə ki, Ordular Rəbbi belə deyir: “Bax ‹Pöhrə› adlanan
adam budur!

O olduğu yerdən qol-budaq atacaq,

Rəbbin məbədini tikəcək.

[13]Bəli, Rəbbin məbədini o tikəcək.

O izzətlənəcək, taxtında oturub hökmranlıq edəcək.

Taxtının yanında kahin olacaq,

İkisinin arasında tam razılıq olacaq”.

[14]Bu taclar Xeldayın, Toviyanın, Yedayanın, Sefanya oğlu Yoşiyanın xatirəsi kimi
Rəbbin məbədinə qoyulacaq. [15]Uzaqda olanlar da gəlib Rəbbin məbədinin tikintisində
çalışacaq. Onda biləcəksiniz ki, məni Ordular Rəbbi sizin yanınıza göndərmişdir. Əgər
Allahınız Rəbbin səsinə yaxşı qulaq assanız, bunlar olacaq».

# Zəkəriyyə 7

**Ədalətin ibadətdən üstünlüyü**

[1]Padşah Daranın hakimiyyətinin dördüncü ilində, doqquzuncu ay olan Kislev ayının
dördüncü günü Zəkəriyyəyə Rəbbin sözü nazil oldu. [2]O vaxt Bet-El əhalisi Sar-Eseri,
Reqem-Meleki və onun adamlarını Rəbbin hüzuruna yalvarmağa göndərdi ki, [3]Ordular
Rəbbinin evində olan kahinlərlə peyğəmbərlərdən «İllərlə etdiyimiz kimi beşinci ayda
yenə də oruc tutub ağlayaqmı?» deyə soruşsunlar. [4]Onda mənə Ordular Rəbbinin bu sözü
nazil oldu: [5]«Bütün ölkə xalqına və kahinlərə söylə:

“Yetmiş il ərzində beşinci və yeddinci aylarda

Oruc tutub yas saxladığınız zaman

Mənim üçünmü oruc tuturdunuz?

[6]Yeyib-içdiyiniz zaman

Özünüz üçün yeyib-içmirdinizmi?”

[7]Yerusəlim əmin-amanlıq içində yaşayarkən, ətrafındakı şəhərlər, Negev və yamaclı-
düzənlikli bölgədə insanlar sakin olarkən Rəbb indi dediyi bu sözləri əvvəlki
peyğəmbərlər vasitəsilə söyləməmişdimi?» [8]Zəkəriyyəyə Rəbbin bu sözü nazil oldu:
[9]«Ordular Rəbbi belə deyir:

“Düzgün və ədalətlə mühakimə edin.

Hər kəs bir-birinə məhəbbət və mərhəmət göstərsin.

[10]Dul qadına, yetimə, qəribə və yoxsula zülm etməyin.

Ürəyinizdə bir-birinizə qarşı pis niyyətlər tutmayın”.

[11]Ancaq onlar eşitməkdən boyun qaçırdı, inadkarlıqla arxa çevirdi, eşitməmək üçün
qulaqlarını bağladı. [12]Ordular Rəbbinin Öz Ruhu ilə əvvəlki peyğəmbərlər vasitəsilə
göndərdiyi qanunu və nəsihətləri eşitməmək üçün ürəklərini almaz kimi sərtləşdirdilər.
Buna görə də Ordular Rəbbi onlara çox qəzəbləndi. [13]Ordular Rəbbi deyir: "İndi ki Mən
onları çağıranda qulaq asmadılar, onlar da çağıranda Mən qulaq asmayacağam. [14]Onları
qasırğa kimi tanımadıqları millətlərin arasına səpələdim. Arxada qoyduqları torpaq elə
viran qaldı ki, oraya gedib-gələn olmadı. Gözəl torpaq xaraba qaldı"».

# Zəkəriyyə 8

### Allahın Yerusəlimə xeyir-duası

[1]Mənə Ordular Rəbbinin bu sözü nazil oldu: [2]Ordular Rəbbi belə deyir: «Sion üçün
böyük qısqanclıq duyuram. Bəli, onu çox qısqanıram». [3]Rəbb belə deyir: «Siona
qayıtdım, artıq Yerusəlimdə yaşayacağam. Yerusəlim Həqiqət şəhəri, Ordular Rəbbinin
dağı Müqəddəs dağ çağırılacaq». [4]Ordular Rəbbi belə deyir: «Yenə Yerusəlim
meydanlarında qoca kişilər və qadınlar oturacaq, hər kəs yaşı çox olduğuna görə əlinə əsa
alacaq. [5]Şəhərin meydanları orada oynayan oğlan və qız uşaqları ilə dolacaq». [6]Ordular
Rəbbi belə deyir: «O günlər bu xalqın sağ qalanlarının gözündə bu iş qeyri-mümkün
görünürsə, Mənə də belə görünməlidirmi?» bəyan edir Ordular Rəbbi. [7]«Bax Mən Öz
xalqımı şərq və qərb ölkələrindən qaytaracağam» deyir Ordular Rəbbi. [8]«Mən onları
gətirəcəyəm və onlar Yerusəlimdə yaşayacaq. Onlar Mənim xalqım olacaq, Mən də
sədaqət və salehliklə onların Allahı olacağam». [9]Ordular Rəbbi belə deyir: «Ordular
Rəbbinin evinin – məbədin tikilməsi üçün təməli qoyulan gün orada peyğəmbərlərin
dediyi bu sözləri o vaxt eşidənlər, qoy qolunuza güc gəlsin. [10]O vaxtdan əvvəl insan
yaxud heyvana heç bir əvəz verilmirdi. Düşmən üzündən heç kəs əmin-amanlıq içində
gedib-gələ bilmirdi. Çünki adamları bir-birinin üstünə salışdırmışdım. [11]Ancaq indi bu
xalqın sağ qalanları ilə əvvəlki kimi rəftar etməyəcəyəm» bəyan edir Ordular Rəbbi.
[12]«Çünki əkilən toxum bəhərli olacaq: tənək bəhrəsini, torpaq məhsulunu, göylər şehini
verəcək. Bunların hamısını bu xalqın sağ qalanlarına mülk olaraq verəcəyəm. [13]Sizi
qurtaracağam, ey Yəhuda və İsrail nəsli. Siz necə millətlər arasında lənət hədəfi
oldunuzsa, indi bərəkət qaynağı olacaqsınız. Qorxmayın, qolunuza güc gəlsin».
[14]Ordular Rəbbi belə deyir: «Atalarınız Məni qəzəbləndirən zaman başınıza fəlakət
gətirmək istədim və fikrimdən dönmədim» deyir Ordular Rəbbi. [15]«İndi isə Yerusəlimə
və Yəhuda nəslinə yenə yaxşılıq etmək fikrindəyəm. Siz qorxmayın! [16] Belə edin: hər
kəs öz qonşusuna həqiqəti söyləsin, əmin-amanlıq üçün şəhər darvazalarında sədaqət və
ədalətlə mühakimə edin. [17]Bir-birinizə qarşı ürəyinizdə pis niyyət tutmayın, yalandan
and içməkdən əl çəkin, çünki bunların hamısı Mənim nifrət etdiyim şeylərdir» bəyan edir
Rəbb. [18]Mənə Ordular Rəbbinin bu sözü nazil oldu: [19]Ordular Rəbbi belə deyir:
«Dördüncü, beşinci, yeddinci və onuncu ayların orucları Yəhuda xalqı üçün sevinc və
şadlıq dolu gözəl bayramlar olacaq. Ancaq siz düzgünlüyü və əmin-amanlığı sevin».
[20]Ordular Rəbbi belə deyir: «Hələ çoxlu xalq, çoxlu şəhərin əhalisi də gələcək. [21]Bir
şəhərdə yaşayanlar başqa şəhərə gedib deyəcək: "Gəlin yola düşək, Rəbbin hüzurunda
yalvaraq, Ordular Rəbbini axtaraq. Mən də gedirəm". [22]Bir çox xalqlar və qüdrətli
millətlər Ordular Rəbbini axtarmaq və Rəbbin hüzurunda yalvarmaq üçün Yerusəlimə
gələcək». [23]Ordular Rəbbi deyir: «O günlərdə müxtəlif dillərdə danışan millətlərdən olan

on adam bir Yəhudinin ətəyindən yapışıb “qoy sizinlə gedək, çünki Allahın sizinlə olduğunu eşitmişik” deyəcək».

# Zəkəriyyə 9

### İsrailin düşmənlərinə cəza

[1]Bu xəbərdarlıq Xadrak ölkəsi və onun rahatlıq yeri Dəməşq şəhəri barəsində nazil olan
Rəbbin sözüdür, çünki insanların və bütün İsrail qəbilələrinin gözü Rəbbə baxır. [2] Bu söz
oranın sərhədində olan Xamat şəhərinə, çox tərəqqi etmiş Sur və Sidon şəhərlərinə də
aiddir. [3]Sur özünə bir qala tikdi, torpaq qədər gümüş, küçə palçığı qədər saf qızıl yığdı.
[4]Amma Rəbb onu qovacaq, dənizdəki gücünü yox edəcək, od onu yandırıb-yaxacaq. [5]
Aşqelon bunu görüb qorxacaq, Qəzzə də çox ağrı çəkəcək, Eqron da eləcə, çünki ümidi
sönəcək. Qəzzədə padşah olmayacaq, Aşqelon sakinsiz qalacaq. [6]Aşdodda bic
doğulanlar yaşayacaq, Filiştlilərin qürurunu qıracağam. [7]Ağızlarından qanı daman əti,
dişlərinin arasından haram yeməkləri alacağam. Onların sağ qalanları Allahımıza məxsus
olub Yəhudanın bir nəsli kimi olacaq. Eqronlular da Yevuslular kimi olacaq. [8]Hücum
edən ordulara qarşı evimin ətrafında ordugah quracağam. Heç bir istilaçı daha xalqımın
üzərinə tökülməyəcək. Çünki artıq xalqıma Mən keşik çəkirəm.

### Rəbbin vədi

[9]Ey Sion qızı, böyük sevinclə coş, Ey Yerusəlim qızı, hayqır!

Bax padşahın sənə tərəf gəlir.

O ədalətli və xilaskardır.

O itaətkardır və bir eşşəyə –

Eşşəyin balası olan sıpaya minib gəlir.

[10]Döyüş arabalarını Efrayimdən, Atları Yerusəlimdən uzaqlaşdıracağam.

Döyüş kamanları qırılacaq.

Padşahınız millətlərə sülh elan edəcək.

Onun hökmranlığı dənizdən dənizə,

Çaydan yer üzünün qurtaracağınadək hər yerə uzanacaq.

[11]Sizə gəlincə, əhd qurbanının qanından ötrü

Sürgündəki xalqınızı

Susuz quyudan çıxarıb xilas edəcəyəm.

12 Qalanıza qayıdın,

Ey ümid edən əsirlər!

Bu gün sizə bildirirəm ki,

Sizə zəhmətinizin ikiqat əvəzini verəcəyəm.

13 Yəhudanı Özüm üçün kaman kimi çəkəcəyəm,

Efrayimi ox kimi ona qoyacağam.

Ey Sion, övladlarını

Yunan övladlarının üstünə qaldıracağam.

Səni bir döyüşçü qılıncı tək edəcəyəm.

14 Onda Rəbb xalqının üzərində görünəcək,

Onun oxu şimşək kimi çaxacaq.

Xudavənd Rəbb şeypur çalacaq,

Cənub qasırğaları ilə irəli gedəcək.

15 Onları Ordular Rəbbi qoruyacaq.

Düşmənlərini tələf edəcəklər,

Sapand daşları ilə qırıb-çatacaqlar.

Onların qanını şərab kimi içib hay-küy salacaqlar.

Qurban qanı tökülən qablar kimi,

Qurbangahın künc-bucaqları kimi

Qanla dolu olacaqlar.

16 O gün özlərinin Allahı Rəbb

Xalqının sürüsü kimi onları xilas edəcək.

Onlar Onun torpağında

Tac daş-qaşı kimi parıldayacaq.

[17]Necə yaraşıqlı, necə gözəl olacaqlar!

Oğlanlar taxılla,

Qızlar təzə şərabla gücə gələcək.

# Zəkəriyyə 10

**Yəhudanın xilası**

[1]Yaz yağışı mövsümündə

Rəbdən, şimşək çaxdıran Rəbdən

Yağış istəyin.

O, insanlara bolluca yağış və

Hər kəsin tarlasına ot verəcək.

[2]Ancaq ev bütlərindən alınan vədlər boş şeydir. Falçılar boş görüntülər görür,

Mənasız yuxular danışaraq

Əbəs yerə təsəlli verir.

Buna görə də xalq sürü kimi dağınıqdır,

Zəhmət çəkirlər, çünki bir çoban yoxdur.

[3]Rəbb deyir:

«Çobanlara qarşı qəzəbim alovlandı,

Başçılarına cəza verəcəyəm.

Ordular Rəbbi Öz sürüsü olan

Yəhuda nəslinin qayğısını çəkəcək.

Onlar əzəmətli döyüş atları kimi olacaq.

4 Künc daşı, çadır payası,
Döyüş kamanı ondan olacaq.
Bütün xalq başçıları ondan çıxacaq.
5 Onlar döyüşdə
Düşməni küçələrdə palçıqda tapdalayan
İgidlər kimi olacaq,
Rəbb onlarla olduğu üçün döyüşəcəklər,
Süvariləri utandıracaqlar.
6 Yəhuda nəslini qüvvətləndirəcəyəm,
Yusif xalqını qurtaracağam.
Sürgündən geri qaytaracağam,
Çünki onlara acıyıram.
Elə edəcəyəm ki, sanki onları
Heç əvvəlcədən rədd etməmişəm.
Çünki Mən onların Allahı Rəbbəm,
Onlara cavab verəcəyəm.
7 Efrayimlilər igidlər kimi olacaq,
Şərab içmiş kimi ürəkləri coşacaq.
Övladları bunu görüb sevinəcək,
Ürəkləri Rəbdə sevinc tapacaq.
8 Fit çalıb onları toplayacağam,
Çünki Mən onları satın almışam.
Əvvəllər necə çoxalırdılarsa,

İndi də eləcə çoxalacaqlar.

9 Onları xalqlar arasına səpələdimsə də,

Uzaq ölkələrdə Məni yada salacaqlar.

Övladları ilə birgə sağ qalacaq və

Geri qayıdacaqlar.

10 Mən onları yenə Misir ölkəsindən gətirəcək,

Aşşurdan toplayacağam.

Onları Gilead torpağına,

Livana gətirəcəyəm.

Onlara kifayət qədər yer tapılmayacaq.

11 Əziyyət dənizindən keçəcəklər,

Dənizin dalğaları sakitləşəcək,

Nilin bütün dərin suları quruyacaq.

Aşşurun qüruru alçaldılacaq,

Misirin padşahlıq əsası əlindən düşəcək.

12 Onları Rəbdə qüvvətləndirəcəyəm,

Onlar da Rəbbin adı ilə yaşayacaq»

Rəbb belə bəyan edir.

## Zəkəriyyə 11

1 Ey Livan, qapılarını aç ki,

Od sənin sidr ağaclarını yandırıb-yaxsın.

2 Ey şam ağacı, fəryad et,

Çünki sidr ağacı yıxıldı,

Hündür ağaclar məhv oldu.

Fəryad edin, ey Başan palıdları,

Qalın meşənin ağacları böyrü üstə aşdı.

3Çobanların fəryadını eşit,

Çünki onların fəxr etdikləri

Otlaqları məhv oldu.

Cavan aslanların nəriltisinə qulaq as,

Çünki İordan çayının kənarındakı sıx meşə yox oldu.

**İki çoban**

4Allahım Rəbb belə deyir: «Kəsmək üçün ayrılmış sürünü sən otar. 5O sürünün
qoyunlarını alanlar onları kəssə də, təqsirsiz qalır. Onları satanlar isə “Rəbbə alqış olsun
ki, dövlətli oldum” deyir. Çobanlar öz sürülərinə acımır. 6Mən də daha ölkədə yaşayan
xalqa acımayacağam» bəyan edir Rəbb. «Hər kəsi öz qonşusuna və padşahına təslim
edəcəyəm. Ölkəni dağıdacaqlar, Mən də xalqı əllərindən qurtarmayacağam. 7Buna görə
də kəsmək üçün ayrılmış sürünün zəiflərini otardım. Özümə iki dəyənək götürdüm, birini
“Lütf”, o birini isə “Birlik” adlandırdım və sürünü otarmağa başladım. 8Bircə ayın içində
üç çobanı işdən qovdum, çünki onların əlindən təngə gəlmişdim, onların da Məndən
zəhləsi gedirdi. 9Sonra sürüyə dedim: “Daha sizi otarmayacağam. Ölən ölsün, kəsilən
kəsilsin, yerdə qalanlar da bir-birlərinin ətini yesin”. 10Sonra “Lütf” adlı dəyənəyimi
götürdüm və bütün xalqlarla bağladığım əhdi pozmaq üçün onu qırdım. 11Beləcə əhd o
gün pozuldu. Sürünün Mənə qulaq asan zəifləri bunun Rəbbin sözü olduğunu anladı. 12
Mən onlara dedim: “Əgər bu sizə xoşdursa, Mənim muzdumu verin, əgər belə deyilsə,
verməyin”. Onlar Mənə muzd olaraq otuz gümüş verdi. 13Rəbb Mənə dedi: “Onların
Məni qiymətləndirdiyi bu yüksək muzdu dulusçuya at”. Beləcə otuz gümüşü götürüb
Rəbbin məbədində olan dulusçuya atdım. 14Sonra Yəhuda ilə İsrail arasındakı qardaşlığı
pozmaq üçün “Birlik” adlı o biri dəyənəyimi də qırdım. 15Rəbb mənə dedi: “Yenə ağılsız
bir çobanın əşyalarını özün üçün götür. 16Mən ölkəyə elə bir çoban qoyacağam ki,
oğurlananlara baxmayacaq, itmişləri axtarmayacaq, xəstələri sağaltmayacaq, sağlamları
bəsləməyəcək. Ancaq kök qoyunların ətini yemək, pəncələrini kəsməklə məşğul olacaq.
17Sürünü tərk edən yaramaz çobanın vay halına!

Qılınc onun qolunu və sağ gözünü vursun!

Qoy onun qolu qurusun, sağ gözü kor olsun!”»

# Zəkəriyyə 12

### Yerusəlimin xilas edilməsi

1 Bu xəbərdarlıq İsrail barədə nazil olan Rəbbin sözüdür: göyləri yayan, yerin təməlini
qoyan, insanın içindəki ruha şəkil verən Rəbb belə bəyan edir: 2 «Bax Yerusəlimi
ətrafındakı bütün xalqları səndələdən şərab dolu kasa edəcəyəm. Yerusəlim kimi Yəhuda
da mühasirəyə alınacaq. 3 O gün Yerusəlimi bütün xalqlar üçün ağır bir daş edəcəyəm.
Onu qaldıranların hamısı ağır yaralanacaq. Dünyanın bütün millətləri ona qarşı
birləşəcək. 4 O gün hər atı dəhşətə, süvarisini dəliliyə düçar edəcəyəm» bəyan edir Rəbb,
«Mən Yəhuda nəslinə göz qoyacağam, amma o biri xalqların bütün atlarını kor
edəcəyəm. 5 Onda Yəhuda başçıları ürəklərində deyəcək: “Özlərinin Allahı Ordular
Rəbbinin ucbatından Yerusəlimdə yaşayanlar mənim üçün qüvvə olub”. 6 O gün Yəhuda
başçılarını odunların arasında yanan bir manqal, dərzlərin ortasında alovlanan bir məşəl
kimi edəcəyəm. Hər tərəfdə – sağda və solda olan bütün xalqları yandırıb məhv
edəcəklər. Yerusəlimlilər isə yenə öz şəhərlərində yaşayacaq. 7 Mən Rəbb əvvəlcə
Yəhuda xalqının məskənlərini qurtaracağam. Ona görə ki Davud nəsli və Yerusəlimdə
yaşayanlar Yəhudadan çox şərəfli olmasın. 8 Mən Rəbb o gün Yerusəlimdə yaşayanları
qoruyacağam. O gün onların arasında ən gücsüz adam Davud kimi, Davud nəsli isə Allah
kimi, onlara başçılıq edən Rəbbin mələyi kimi olacaq. 9 O gün Yerusəlimə hücum etmək
üçün gələn bütün millətləri məhv etməyə çalışacağam. 10 Davud nəsli və Yerusəlimdə
yaşayanların üzərinə lütf və yalvarış ruhunu tökəcəyəm. Onlar Mənə – bədənini
deşdikləri şəxsə baxacaq və vahid oğluna yas tutan adam kimi ona yas tutacaq, ilk oğlu
üçün dərd çəkən adam kimi dərd çəkəcək. 11 O gün Yerusəlimdə böyük matəm olacaq,
Megiddo düzənliyində, Hadad-Rimmonda olduğu kimi böyük matəm olacaq. 12 Ölkədə
hər nəsil öz içində yas tutacaq: Davud nəsli ayrı, qadınları ayrı, Natan nəsli ayrı, qadınları
ayrı, 13 Levi nəsli ayrı, qadınları ayrı, Şimey nəsli ayrı, qadınları ayrı yas tutacaq.
14 Bütün qalan nəsilləri ayrı-ayrı, qadınları isə ayrı yas tutacaq.

# Zəkəriyyə 13

### Günahdan təmizlənmə

1 O gün Davud nəslini və Yerusəlimdə yaşayanları günahdan və murdarlıqdan təmizləmək
üçün bir bulaq açılacaq. 2 O gün ölkədən bütlərin adını birdəfəlik siləcəyəm, onlar bir
daha xatırlanmayacaq. Yalançı peyğəmbərləri də, natəmiz ruhu da ölkədən
uzaqlaşdıracağam» bəyan edir Ordular Rəbbi. 3 «Əgər kimsə yenə peyğəmbərlik etsə,
onu dünyaya gətirmiş ata-anası ona deyəcək: “Sən yaşaya bilməzsən, çünki Rəbbin adı
ilə yalan söyləmisən”. Sonra isə peyğəmbərlik edəndə öz ata-anası onun bədənini
deşəcək. 4 O gün hər peyğəmbər peyğəmbərlik edərkən ona nazil olan görüntüdən
utanacaq. O daha insanları aldatmaq üçün tüklü paltar geyməyəcək. 5 O deyəcək: “Mən
peyğəmbər deyiləm, əkinçiyəm. Cavanlığımda bir adam məni özünə qul etdi”. 6 O biri
ondan soruşacaq: “Bəs sinəndəki bu yaralar nədir?” O isə “dostlarımın evində aldığım
yaralardır” deyəcək.

**Çobanın həlakı**

[7]Oyan, ey qılınc, Çobanımın, yaxınımın üstünə get»

Bəyan edir Ordular Rəbbi.

«Çobanı vur,

Qoyunları pərən-pərən olsun.

Mən də əlimi kiçiklərə qarşı qaldıracağam.

[8]Bütün ölkədə

Xalqın üçdə ikisi vurulub-öldürüləcək,

Üçdə biri isə sağ qalacaq»

Bəyan edir Rəbb.

[9]«Qalan üçdə birini oda salacağam,

Onları gümüşü təmizləyən kimi təmizləyəcəyəm.

Qızılı yoxlayan kimi yoxlayacağam.

Onlar Mənim adımı çağıracaq,

Mən də onlara cavab verib

“Bunlar Mənim xalqımdır” deyəcəyəm,

Onlar da “Rəbb Allahımızdır” deyəcək.

# Zəkəriyyə 14

**Allahın padşahlığı**

[1]Budur, Rəbbin günü gəlir! Ey Yerusəlim xalqı, sənin qarət olunmuş mallarını gözlərin
önündə bölüşdürəcəklər. [2]Mən bütün millətləri Yerusəlimə qarşı müharibə etmək üçün
toplayacağam. Şəhər ələ keçiriləcək, evlər qarət ediləcək, qadınlara təcavüz ediləcək.
Şəhər əhalisinin yarısı sürgünə göndəriləcək, amma qalanların şəhərdən kökü
kəsilməyəcək. [3]O zaman Rəbb çıxıb müharibə günündə necə döyüşdüsə, eləcə o
millətlərə qarşı döyüşəcək. [4]O gün Onun ayaqları Yerusəlimin önündə – şərq tərəfində
olan Zeytun dağının üzərində duracaq. Zeytun dağı şərqə və qərbə doğru ortadan yarılıb
çox böyük bir vadi olacaq. Dağın yarısı şimala, yarısı cənuba çəkiləcək. [5]Siz isə

dağlarımdakı vadi ilə qaçacaqsınız, çünki dağlardakı vadi Aselə qədər uzanacaq. Yəhuda
padşahı Uzziyanın dövründə zəlzələ olarkən necə qaçdınızsa, eləcə qaçacaqsınız. O
zaman Allahım Rəbb bütün müqəddəslərlə birgə gələcək. 6 O gün işıq olmayacaq, işıq
verən göy cisimləri qaralacaq. 7 Yalnız Rəbbin bildiyi xüsusi bir gün olacaq. Gecə də,
gündüz də olmayacaq. Axşam vaxtı işıqlı olacaq. 8 O gün Yerusəlimdən həyat verən
sular axacaq. Suların yarısı Şərq dənizinə, yarısı isə Qərb dənizinə axacaq. Yayda da,
qışda da belə olacaq. 9 Rəbb bütün dünyanın padşahı olacaq. O gün yalnız Rəbb və Onun
adı ucalacaq. 10 Bütün ölkə Gevadan Yerusəlimin cənubundakı Rimmona qədər Arava
düzənliyi kimi olacaq. Amma Yerusəlim yüksəklikdə olacaq, Binyamin darvazasından ilk
darvazanın yerinə, Künc darvazasına, Xananel qülləsindən padşahın üzümsıxanlarına
qədər öz yerində duracaq. 11 İnsanlar orada sakin olub asayiş içində yaşayacaq.
Yerusəlim bir daha məhvə düçar olmayacaq. 12 Yerusəlimə hücum edən bütün xalqları
Rəbb bu bəla ilə cəzalandıracaq. Ayaq üstə olanda bədənləri, hədəqələrindəki gözləri,
ağızlarındakı dilləri çürüyəcək. 13 O gün Rəbb onları böyük təlaşa düçar edəcək. Hər kəs
qonşusunun əlini tutacaq, bir-birinin üstünə hücum çəkəcək. 14 Yəhudalılar da
Yerusəlimdə vuruşacaq. Ətrafdakı bütün millətlərin sərvəti, çoxlu miqdarda qızıl, gümüş
və paltar toplanacaq. 15 Düşmən ordugahlarındakı bütün heyvanlar da – atlar, qatırlar,
dəvələr və eşşəklər bu cür bəlaya düçar olacaq. 16 Yerusəlimə hücum edən millətlərdən
sağ qalanların hamısı Ordular Rəbbi olan Padşaha səcdə etmək və Çardaqlar bayramını
keçirmək üçün hər il Yerusəlimə gedəcək. 17 Əgər yer üzündəki nəsillərdən hansısa
Ordular Rəbbi olan Padşaha səcdə etmək üçün Yerusəlimə getməsə, onun ölkəsinə yağış
yağmayacaq. 18 Misirlilər nəsli Yerusəlimə getməsə, onların torpağı suvarılmayacaq.
Rəbb onlara da Çardaqlar bayramını keçirmək üçün Yerusəlimə getməyən bütün
millətlərə verdiyi cəzanı verəcək. 19 Misirlilərə və Çardaqlar bayramını keçirmək üçün
Yerusəlimə getməyən bütün millətlərə belə cəza veriləcək. 20 O gün atların zınqırovları
üzərinə “Rəbbə həsr edilmiş” sözləri yazılacaq. Rəbbin evindəki qazanlar da qurbangahın
önündəki ləyənlər kimi olacaq. 21 Yerusəlim və Yəhudada hər qazan Ordular Rəbbinə
həsr olunacaq. Qurban kəsən adamların hamısı gəlib bu qazanlardan qurban ətini
bişirmək üçün istifadə edəcək. O gün Ordular Rəbbinin evində artıq Kənanlı
qalmayacaq».